# Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının inkişaf startegiyası

# Kafedranın işinin əsas istiqamətləri

Tədris proqramlarının müasir elmi yanaşmalar və klinik praktikaya əsaslanan metodlar əsasında hazırlanması və tətbiqi

Prioritet elmi istiqamətlər üzrə fundamental və tətbiqi tədqiqatların aparılması, eləcə də milli və beynəlxalq elmi layihələrdə fəal iştirak

Yoluxucu xəstəliklər sahəsində klinik, epidemioloji və infeksion nəzarət üzrə tədrisin təşkili

Müəllim və tədqiqatçı potensialının inkişafı və gənc mütəxəssislərin elmi fəaliyyətə sistemli şəkildə cəlb olunması

Rezidentura pilləsində təhsil alan həkim-rezidentlərin hazırlanması

Doktorantura pilləsində təhsil alan doktorantların hazırlanması

# Yoluxucu Xəstəliklər Kafedrasında tədris-metodiki işlər üzrə əsas istiqamətlər

## Fənlərin müasir beynəlxalq standartlara uyğun tədrisi və tələbələrin nəzəri bilikləri ilə klinik bacarıqlarının inkişaf etdirilməsi

- Yoluxucu xəstəliklər üzrə müasir elmi bilik, bacarıq və səriştələrə malik məzunların hazırlanmasını təmin edən tədrisin təşkili

## Kompetensiyaya əsaslanan təhsil və səriştələrin qiymətləndirilməsi mexanizmlərinin tətbiqi

- Aparıcı beynəlxalq ali tibb təhsili müəssisələrinin təcrübəsinə əsaslanaraq yoluxucu xəstəliklər üzrə tədris proqramlarının hazırlanması və yenilənməsi

## Klinik ssenarilər, interaktiv dərslər və distant təhsil resurslarının istifadəsi

- Yoluxucu xəstəliklər üzrə yeni elektron və rəqəmsal tədris materiallarının hazırlanması və mövcud materialların elmi yeniliklərə uyğun yenilənməs

# Yoluxucu Xəstəliklər Kafedrasında tədris-metodiki işlər üzrə əsas istiqamətlər

## Birgə proqramlar və təcrübə mübadiləsi

- Digər ali tibb təhsili müəssisələrinin və elmi-tədqiqat institutlarının yoluxucu xəstəliklər kafedraları ilə tədris-metodiki əməkdaşlığın inkişaf etdirilməsi

## Dərslik, dərs vəsaiti və metodik materialların hazırlanması və nəşri.

- Bakalavr və rezidentura pillələrində yoluxucu xəstəliklər üzrə tədris olunan fənlər üçün Azərbaycan və ingilis dillərində müasir dərslik, dərs vəsaiti və metodik materialların hazırlanması və nəşri.

## Professor-müəllim heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi.

- Kafedranın professor-müəllim heyətinin yoluxucu xəstəliklər üzrə müasir tədris metodları və innovativ təlim texnologiyaları sahəsində bacarıqlarının təkmilləşdirilməsi və xarici dil, xüsusilə ingilis dili bacarıqlarının artırılması.

# Yoluxucu Xəstəliklər Kafedrasında tədris-metodiki işlər üzrə əsas istiqamətlər

## Qiymətləndirmə materiallarının hazırlanması

- Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün yoluxucu xəstəliklərə uyğun test banklarının, klinik situasiya tapşırıqlarının və obyektiv strukturlaşdırılmış qiymətləndirmə materiallarının hazırlanması.

## Rezidentlərlə iş

- Rezidentura pilləsində yoluxucu xəstəliklər üzrə klinik və elmi-tədqiqat mövzularının rezidentlərin ixtisas profilinə uyğun seçilməsi və elmi-praktik işlərin müasir klinik yanaşmalar və aktual elmi tələblərə cavab verməsinin təmin olunması.

## Rəqəmsal qiymətləndirmə vasitələrindən istifadənin genişləndirilməsi

- Yoluxucu xəstəliklərin tədrisində informasiya və kommunikasiya texnologiyalarından, elektron platformalardan və rəqəmsal qiymətləndirmə vasitələrindən istifadənin genişləndirilməsi.

# Yoluxucu Xəstəliklər Kafedrasının elmi-tədqiqat işi sahəsində əsas istiqamətləri

- Kafedra əməkdaşlarının elmi nəticələrinin beynəlxalq indeksləşdirilmiş elmi jurnallarda nəşrinin təşviqi, milli və beynəlxalq elmi konfranslarda şifahi və poster məruzələrlə iştirakının artırılması, həmçinin ixtisasartırma və elmi kurslarda iştirakının təmin olunması.
- Beynəlxalq qrant layihələrində (Horizon Europe, COST və s.) iştirak məqsədilə Avropanın və regionun aparıcı ali tibb təhsili müəssisələri və elmi-tədqiqat institutları ilə elmi əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi.
- Yoluxucu xəstəliklər sahəsində aktual və prioritet elmi istiqamətlər üzrə tədqiqat mövzularının müəyyənləşdirilməsi, planlaşdırılması və mərhələli şəkildə həyata keçirilməsi.
- Respublika səviyyəsində elan olunan qrant layihələrində iştirakın genişləndirilməsi məqsədilə kafedranın elmi potensialının, mövcud kadr və tədqiqat resurslarının səfərbər edilməsi.
- Yoluxucu xəstəliklər üzrə elmi-tədqiqat fəaliyyətində klinik, epidemioloji və laborator yönümlü tədqiqatların inteqrasiyasını təmin edən yeni prioritet istiqamətlərin formalaşdırılması və tətbiqi.

# Yoluxucu Xəstəliklər Kafedrasında maddi-texniki bazanın yaxşılaşdırılması üzrə əsas istiqamətlər

- Kafedranın səlahiyyətində olan dərs otaqlarının yoluxucu xəstəliklərin tədrisinə uyğun şəkildə müasir tələblərə cavab verən iş vəziyyətində saxlanılması.
- Tədris prosesində istifadə olunan fiziki cəhətdən köhnəlmiş avadanlıqların mərhələli şəkildə yenilənməsi
- Kafedrada kompüter texnologiyalarının təkmilləşdirilməsi və genişləndirilməsi.